




# Ağadadaş Qurbanovun Bakı Uşaq Teatrının yaranmasında rolu

**1923-cü ildən başlayaraq Bakı dəniz limanında, toxuculuq fabrikində, indiki Səttərxan adına zavodda, iki saylı uşaq evində, neft-qaz zavodunda ilk dəfə on iki nəfərdən ibarət pioner dəstəsi yaradıldı. Bu on iki uşaqdan biri də üçüncü sinif şagirdi Ağadadaş Qurbanov idi.**

Dram dərnəyində klassik və müasir Azərbaycan yazıçılarının əsərləri səhnəyə qoyulurdu. On iki nəfərdən ibarət olan bu dəstə də Hacıağa Abbasovun "Sabirin məhkəməsi" adlı kiçik pyesini tamaşaya hazırlamışdı. Ağadadaş Qurbanov bu tamaşada Sabirin oğlunu oynamaqla yanaşı, rejissor işinə də köməklik edirdi. Onun səhnədəki sərbəstliyi, diksiyasının aydınlığı tamaşaçıların diqqətini cəlb etdi. Bir müddət keçdikdən sonra dram dərnəyinin fəaliyyətini genişləndirmək zərurəti meydana çıxır. Az müddət sonra isə uşaqlardan ibarət dram kollektivi təşkil olundu, Ağadadaş Qurbanov kollektivə həm rəhbər, həm də rejissor təyin edildi.

O, öz işinə tələbkar olmaqla yanaşı, dostlarından da bunu tələb edirdi. Abbasmirzə Şərifzadəni "İblis" rolunda göröndən sonra onda teatra qarşı yaranan həvəs daha da artmışdır. Ancaq maddi durumunun aşağı olması ona tamaşalara baxmaq imkanı vermirdi. Mərhum akademik Məmməd Arif Dadaşzadənin atası bağban Məhərrəm kişi ilə qonşu idilər. Məhərrəm kişi gənc Ağadadaşdakı həvəsi görüb, ona teatra getmək üçün pul verərdi. O, böyük həvəslə Abbasmirzənin ifa etdiyi rollara tamaşa edər, onun bütün hərəkət və jestlərini yaddaşına həkk etməyə çalışardı. Tamaşa bitdikdən sonra xəlvətcə arxa qapıda Şərifzadəni gözləyər, onun dalınca gedərək yerişini izlər, danışığına qulaq asardı.

A.D.Qurbanov xatirələrində yazır: "Bir gün indiki filarmoniyanın binasında iclasımız var idi, foyedə toplaşmışdıq. Birdən qulağıma tanış, məlahətli səs gəldi. Diqqətlə ətrafıma baxdım. Bizdən aralıda əynində xəz paltosu olan bir nəfər öz yoldaşlarına nə haqda isə danışırdı. Mən onu tanıdım... Onun üzündən mehribanlıq, gözlərindən şəfqət yağırdı. Mən hər şeyi unutdum. İclas yadımdan çıxdı. Onun arxasınca düşüb Qoşaqala qapısına qədər ötürdüm. Həmin gündən onu görmək arzusu ilə yaşayırdım. Məndə teatra getmək meyli oyanmışdı".

O vaxtlar Ağadadaş Qurbanov mütəmadi olaraq teatr tamaşalarına gedər Mirzağa Əliyevin, Sidqi Ruhullanın, Abbasmirzə Şərifzadənin, Rza Təhmasibin, Mərziyə Davudovanın, İsmayıl Hidayətzadənin, Ülvi Rəcəbin ifalarına tamaşa edər, imkan tapıb səhnə arxasına keçərək, dekora, əlbisələrə diqqətlə baxar, tamaşadan sonra aktyorların arxasınca düşərək, onların hərəkətlərinə, danışıqlarına göz qoyardı. Getdikcə onun körpə qəlbində aktyor olmaq həvəsi alışıb yanırdı. Balaca Ağadadaşın səhnəyə olan sonsuz həvəsi və aktyorluq istedadı Sidqi Ruhullanın və İsmayıl Hidayətzadənin diqqətini cəlb etmişdi. Onlar daim Ağadadaşın fəaliyyət göstərdiyi dərnəyə gələr, balaca "artistlərə" yardım edərdilər.

Beləliklə, Ağadadaş Qurbanov böyük Azərbaycan dramaturqları Əbdürrəhim bəy Haqverdiyev və Nəcəf bəy Vəzirovun məsləhəti ilə teatr texnikumuna daxil olur və həm də binası olmayan dram dərnəyinə rəhbərlik edir.

Bina olmadığı üçün tamaşaları şəhərin klub və mədəniyyət saraylarında göstərirlər. Tamaşanın ərsəyə gəlməsi üçün lazım olan əşyaların çatışmazlığından (dekor, rekvizit və s.) əziyyət çəkən kollektiv S.Ruhulla və İ.Hidayətzadənin köməyi ilə öz işini getdikcə artırır. Ağadadaş Qurbanov və onun başçılıq etdiyi kollektiv öz vəzifələrini düzgün dərk edərək, zamanla ayaqlaşan əsərlər səhnəyə qoyurlar.

A.D.Qurbanov 1927-ci ildə mart ayının 15-də, ön altı yaşında özünün səhnədə ilk


İmran AXUNDOV,
fəlsəfə doktoru

rejissor işi və səhnə tərtibatı (rəssam) ilə pioner dəstə rəhbəri olan Lətif Kərimlinin inqilabi mövzuya həsr olunmuş və Azərbaycan dilində uşaqlara aid olan səhnə əsərini, "Fırtına" adlı pyesi tamaşaya qoydu. Dram dərnəyinin üzvləri "Fırtına" tamaşası münasibəti ilə belə bir afişa hazırlamışlar: "Bu gün 15 mart 1927-ci ildə Bakı Dənizçilərinin Mədəniyyət Evində (indiki Sahil bağının yanında) pionerlərin şəhər dairə bürosu yanında çocuq truppası tərəfindən truppanın açılışı münasibəti ilə türk səhnəsində ilk də olaraq Lətif Kərimlinin "Fırtına" əsəri tamaşaya qoyulacaqdır. Tamaşanın rejissoru Ağadadaş Qurbanovdur. Musiqisi M. Soltanzadənindir".

Putilov zavodu fəhlələrinin ağır iş şəraitindən bəhs edən bu tamaşa onların çar üsul-idarəsinə qarşı silahlı üsyana hazırlanmalarından və uşaqların inqilabçılara etdiyi köməklikdən bəhs edirdi.

Tarixdən bilirik ki, 1917-ci ildə inqilab ab-havası Rusiyanın hər tərəfinə yayılmışdır. Hamı kimi Putilov zavodunun fəhlələri olan Kolya, Fedya, Anna, Sergey və başqaları bu mübarizədə öz böyüklərindən geri qalmırlar. Onlar divarlara inqilabi şüarlar yapışdırır, siyasi vərəqlər yayır, fəhlələr arasında təbliğat aparırlar...

Tamaşada dördüncü dəstənin pionerləri Yusif Əmənli (Polkovnik), Minə Abdullayeva (Lipa), Məmmədağa Dadaşov (Kolya), Cəvahir İsgəndərova (Anna), Muxtar Dadaşov (Sergey), Mirəbdül Babayev (Adyutant), Yusif Dadaşov (Jak), Kərim Həsənov və İsmayıl Quluzadə (Malişkin), Əhəd Bağırzadə (Pyotr), Əlibala İsmixanov (Fedya dayı), Mikayıl Ağayev (Birinci fəhlə), Teymur Rzayev (İkinci fəhlə) və başqaları iştirak edirdilər. Beləliklə, Bakıda Fəhlə Uşaqlar Teatrının təməli qoyuldu.

Tamaşada lazım olan bütün əşyaları, dekor, müxtəlif şkaflar, yemək stolunun hazırlanması, əlbisələr, küləyin və qarın yağmasını, silahları, at ayaqlarının və güllə səslərini rejissor Ağadadaş Qurbanov səliqə ilə hazırlamışdır. O, səhərə qədər oyaq qalmış, xeyli kağızı xırda-xırda doğrayaraq yapışdırmış, qar yağması üçün istifadə etmişdir.

"Gənc Ağadadaşın "rejissor" işində ən qiymətli cəhət onda idi ki, tamaşada təbii mizanlar, ağıllı və düşünülmüş vəziyyətlər, təsirli səhnələr yaratmağa çalışmışdır. Bütün rollarda uşaqlar özləri çıxış edirdilər. Bəzi rolların ifasında yaşca uyğunsuzluq var idi. Odur ki, A.D.Qurbanov bir "rejissor" kimi həmyaşıdları olan balaca "artistlərlə" çoxlu işləyib, onları sünilikdən çəkindirməyə çalışmışdı"(İ. Kərimov).

"Fırtına" tamaşasındakı hadisələr Putilov zavodunun fəhlələrinin inqilabi mübarizəyə başlaması zamanında soyuğun qılıc kimi kəsdiyi qış günündə baş verirdi. Zavodun iki böyük qapısı, möhkəm və hündür divarları, gözətçi butkası, işıq verən fənərlər, qışın atibutları olan külək, qar, şaxta Ağadadaş Qurbanov tərəfindən incəliklərinə qədər işlənmişdir. Tamaşada hadisələr birbirini əvəzlədikcə polis idarəsi, Mixailin evi, inqilabçıların saxlandığı həbsxanadakı dekorlar səliqə ilə işlənib tamaşanın ideyasının açılmasına yardımcı olurdu. İnqilabi mübarizə ruhu bu tamaşada hakim mövqe tuturdu. Zavodun fəhlələri arasında meydana gəlmiş inqilabi atmosfera getdikcə artaraq, Putilov zavodunun divarları arasından sıçrayıb, Rusiyaya yayılırdı.

"Fırtına" pyesinin müəllifi L. Kərimli yazır ki, "... səhnəyə ilk qədəm qoyan bu uşaqlar öz bacarıqları ilə tamaşaçıları heyran qoydular. Elə bil ki, onlar neçə il idi səhnədə fəaliyyət göstərirdilər. Xüsusən "rejissor" A.D.Qurbanovun işi hamının xoşuna gəlmişdi. Salonda oturanlar onları dəfələrlə alqışladılar".

"...Lətif Kərimli tərəfindən yazılmış pyes xarici ölkə pionerlərinin inqilabi hərəkatdakı fəaliyyətindən bəhs edirdi. Maraqlı işlənmiş mövzu, əsərdə iştirak edənlərin fikir və düşüncələrini həqiqi, real boyalarla vermək arzusu, qızğın həvəs və səmimilik, bu kiçik, həm də təcrübəsiz kollektivə inandırıcı tamaşa yaratmağa imkan vermişdi" (Ə. Əliyeva).

İlk tamaşa mart ayının 15-də (1927), gündüz saat 10-da tamaşaçılara L. Tolstoy küçəsində (195) yerləşən 33 saylı məktəbdə Məhərrəm Haşımovun idarəçiliyi ilə göstərildi. İkinci tamaşa on gün sonra, yeni mart ayının 25-də İşçi-Kəndli Teatr binasında Bakı fəhlələrinə nümayiş olundu. Üçüncü tamaşa isə yenə 1927-ci ildə Azərbaycan komsomolunun VIII qurultayının iştirakçıları üçün nümayiş olundu. Həmin gecə tamaşaya baxmağa gələn Dadaş Bünyadzadə, Əliheydər Qarayev, Səməd Ağamalıoğlu dərnəyə maddi kömək göstərdilər. Tamaşadan yüksək zövq alan qurultay iştirakçıları, qurultayda qərara gəldilər ki, uşaq teatrı yaradılsın. Bu haqda Azərbaycan SSRİ Maarif Komissarlığı qarşısında məsələ qaldırıldı. 1929-cu ildə Azərbaycan xalq Maarif Komissarlığının qərarına əsasən Ağadadaş Qurbanovun rejissor kimi fəaliyyətə başladığı dram dərnəyinin əsasında Azərbaycan Uşaq Teatrı yaradıldı.

A.D.Qurbanov xatirələrində yazır; "Nəhayət, biz pioner dəstəmizlə dram dərnəyi təşkil etdik. 1927-ci ildə Lətif Kərimlinin "Fırtına" adlı əsərini oynadıq. Tamaşa ictimaiyyətin xoşuna gəldi. Bakıda uşaq teatrının təşkilinə başlandı. Bu məqsədlə müsabiqə komissiyası yarandı. Abbas Mirzə də müsabiqə komissiyasının üzvü idi. Sonra o, bizə danışıq texnikasından dərs deməyə başladı. Onun səsi gur, cingiltili, ahəngdar olduğu kimi diksiyası da aydın idi".

1928-ci il oktyabr ayının 5-də Azərbaycan Xalq Maarif Komissarlığının qərarına əsasən Bakı Uşaq Teatrının rus bölməsi təşkil olundu.

1929-ci ilin ilk aylarında Bakı Uşaq Teatrı Azərbaycan bölməsinə aktyor toplamaq üçün müsabiqə elan etdi və həmin ilin noyabr ayının 19-da uşaq teatrına aktyor seçmək üçün 33 saylı məktəbdə müsabiqə keçirildi. Müsabiqədə Abbasmirzə Şərifzadə, A. Quliyev, Lətif Kərimli, A. Bağırzadə, Q. Kornelli və başqa komissiya üzvləri var idi.

Q. Kornelli rus dilində qələmə aldığı "Rejissorun xatirələri" (1939, s. 7) adlı əlyazmasında qeyd edir ki; "İmtahan çox da böyük olmayan səhnədə aparılırdı. Əvvəl uşaqlar dram əsərlərindən parçalar oxuyur, şer deyir, təmsillər danışırdılar. Sonra isə onların eşitmə, musiqi və ritm hissetmə qabiliyyətləri yoxlanılırdı".

İmtahanın birinci günü truppaya on beş, ikinci günü isə səkkiz aktyor qəbul olundu ki, bunların sırasında Ağadadaş Qurbanov, Məhərrəm Haşımov, Məmmədağa Dadaşov, Cəvahir İsgəndərova, Zinyət Əliyeva, Yusif Dadaşov, Minə Abdullayeva, Muxtar Dadaşov, Zinyət Abbaszadə, Abdulla Əzimzadə və başqaları var idi. Bakı dənizçilər klubu nəzdindəki 40 saylı pioner dəstəsinin dram dərnəyində fəaliyyət göstərən məktəblər və başqa pionerlər Bakı uşaq teatrının ilk aktyorları seçildilər.

Beləliklə, Bakı Uşaq Teatrı ilk Azərbaycan pioner təşkilatlarında çalışan dram kollektivlərinin əsasında yaradıldı.